**“Maarifpərvərlik”**
**Azərbaycan Gənclərinin**
**İctimai Yardım Assosiasiyası**
**(MAGİYA) ictimai birliyi**

**“Education”**
**Public Support Association**
**of Youth of Azerbaijan**
**(EPSAYA) public union**

**Azərbaycan Respublikası, AZ 42 00, Lənkəran şəhəri, Qala Xiyabanı 12,**
**E-mail: magiya_ngo@yahoo.com, Tel.: (+ 994 25) 255 09 04, Mob.: (+ 994 55) 792 44 42**

# PRESS-RELİZ – 2010

MAGİYA ictimai birliyi 2010-cu il ərzində müxtəlif hökümət və qeyri-hökümət təşkilatları ilə sıx əməkdaşlıq çərçivəsində aşağıdakı layihələri (tədbirləri) uğurla həyata keçirmişdir:

1. 25 fevral tarixində N.B.Vəzirov adına Lənkəran Dövlət Dram Teatrında Lənkəran şəhər Gənclər və İdman İdarəsi ilə birgə ***“Xocalı soyqrımı gənc rəssamların gözü ilə!”*** adlı rəsm sərgisi təşkil olunmuşdur. Sərgidə bir çox rəssamın mövzu ilə bağlı müxtəlif rəsm əsərləri nümayiş etdirilmişdir.





2. 20 may tarixində Əskər Əliyev adına “Dostluq” Parkında Lənkəran şəhər Gənclər və İdman İdarəsi ilə birgə ***“Gənc istedadlar sorağında!”*** adlı istedadlı gənclərin əl işlərindən ibarət rəsm sərgisi təşkil edilmişdir. Tədbirdə yüzə yaxın yeniyetmə və gəncin əl işləri nümayiş etdirilmiş və sonunda fərqlənənlərə xüsusi hədiyyələr və sertifikatlar təqdim olunmuşdur.




3. 20 sentyabr tarixində Lənkəran Gənclər Evində Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkilinin (Ombudsmanın) Cəlilabad Regional Mərkəzi və Lənkəran şəhər Gənclər və İdman İdarəsi ilə birgə ***"Sülh – gənclərin gözü ilə!"*** adlı dəyirmi-masa təşkil olunmuşdur. Dəyirmi-masada tələbələr, QHT və KİV nümayəndələri iştirak etmişlər. Tədbirdə sülh və əminamanlığın əhəmiyyətindən və müharibələrin bəşəriyyətə vurduğu ziyanlardan danışılmışdır.




4. 24 sentyabr tarixində ictimai birliyin ofisində "Hüquqi Yardım" ictimai birliyi ilə birgə ***"İnsan alverinə qarşı ictimai mübarizə"*** mövzusunda təlim kursu təşkil edilmişdir. Təlimdə iştirak edən tələbələrə və gənclər təşkilatlarının nümayəndələrinə mövzu ilə bağlı müvafiq məlumatlar verilmiş və sonunda insan alveri barədə video çarx izlənilmişdir.




5. 03 noyabr tarixində Lənkəran Gənclər Evində Lənkəran şəhər Gənclər və İdman İdarəsi ilə birgə ***"İlk dəfə səsverən gənclərlə görüş!"*** adlı dəyirmi-masa təşkil edilmişdir. Dəyirmi-masanın iştirakçıları 18 yaşı yenicə tamam olmuş və ilk dəfə səsvermə hüququ əldə etmiş gənclər olmuşdur. Görüş zamanı gənclərə seçkilər zamanı xüsusi fəallıq nümayiş etdirmələri və səsvermə hüquqlarından istifadə etmələri tövsiyyə edilmişdir.




6. 01 dekabr tarixində Lənkəran Gənclər Evində Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkilinin (Ombudsmanın) Cəlilabad Regional Mərkəzi və Lənkəran şəhər Gənclər və İdman İdarəsi ilə birgə ***"HİV/AİDS-ə qarşı mübarizədə gənclərin fəallığının artırılması!"*** adlı görüş keçirilmişdir. Görüş zamanı iştirakçılara HİV/AİDS haqqında ətraflı məlumat verilmiş, dünya və respublika üzrə müvafiq statistika gündəmə gətirilmişdir. Sonunda MAGİYA ictimai birliyi tərəfindən mövzu ilə bağlı geniş təqdimat keçirilmişdir.





2010-cu ilin iyul ayından etibarən MAGİYA ictimai birliyi tərəfindən Lənkəranda "Uşaqların Xilası" ("Save the Children") Beynəlxalq Təşkilatı və "Ümidli Gələcək" Gənclər Təşkilatının təşkilati, Avropa Birliyi və Statoil şirkətinin isə maliyyə dəstəyi ilə Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi və Təhsil Nazirlikləri, o cümlədən Ailə, Qadın və Uşaq Problemləri Üzrə Dövlət Komitəsi ilə birgə ***"Yeniyetmələr üçün həyat bacarıqları"*** proqramının həyata keçirilməsinə başlanılmışdır. Proqramın məqsədi yeniyetmə və gənclərin peşə hazırlığını artırmaq, onların həyat bacarıqlarını inkişaf etdirmək və yaşadıqları müəssisələri tərk etdikdən sonra onlara həyatda müstəqil fəaliyyət göstərmələri üçün yardım göstərməkdən ibarət olmuşdur. Bu məqsədlə MAGİYA ictimai birliyi ilə Lənkəranda yerləşən "Osman Mirzəyev adına Qarışıq Tipli Uşaq Evi", "Lənkəran Peşə Liseyi", "Əqli və Fiziki Cəhətdən Qüsurlu Uşaqlar üçün Xüsusi İnternat Məktəbi" və Lənkəran Məşğulluq Mərkəzi arasında təlim-təhsil və məşğulluq sahəsində yeniyetmə və gənclərin həyat bacarıqlarının artırılması istiqamətində müvafiq anlaşma memorandumları imzalanmış və həmin müəssisələrin şagird, tələbə, müəllim, tərbiyəçi və təlimatçıları üçün davamlı olaraq aşağıdakı tədbirlər təşkil edilmişdir:

1. 13-14 oktyabr tarixlərində "Əqli və Fiziki Cəhətdən Qüsurlu Uşaqlar üçün Xüsusi İnternat Məktəbi"nin yeniyetmə və gəncləri arasında ***"Həyat bacarıqlarının artırılması məqsədi ilə ictimai sorğular"*** aparılmış və bu sorğuların nəticələri əsasında onlar üçün həyat bacarıqlarının artırılması istiqamətində müvafiq təlimlərin həyata keçirilməsi müəyyənləşdirilmişdir.






2. 22-25 noyabr tarixlərində “Osman Mirzəyev adına Qarışıq Tipli Uşaq Evi”nin şagirdləri üçün “Yeniyetmələr üçün Həyat Bacarıqlarının İnkişafı” adlı 4 günlük təlim kursu keçirilmişdir. Təlim kursunda 20 şagirdə ***“Ünsiyyət və şəxsi bacarıqların artırılması, CV (Tərcümeyi-hal) haqqında ümumi anlayış və intervü (müsahibə), gender və stereotiplər, toleyrantlıq haqqında məlumat, şəxsi gigiyena və zərərli vərdişlərə qarşı ictimai mübarizə”*** haqqında geniş məlumat verilmişdir. Təlimin keçirilməsi zamanı müxtəlif rol oyunları, interaktiv qrup müzakirələri, qrup işləri və təqdimatlar kimi bir çox təlim metodlarından da geniş istifadə olunmuş və sonunda bütün iştirakçılara müvafiq sertifikatlar təqdim edilmişdir.





3. 22-25 noyabr tarixlərində Lənkəran Peşə Liseyinin şagirdləri üçün “Yeniyetmələr üçün Həyat Bacarıqlarının İnkişafı” adlı 4 günlük təlim kursu keçirilmişdir. Təlim kursunda 20 şagirdə ***“Ünsiyyət və şəxsi bacarıqların artırılması, CV (Tərcümeyi-hal) haqqında ümumi anlayış və intervü (müsahibə), gender və stereotiplər, toleyrantlıq haqqında məlumat, şəxsi gigiyena və zərərli vərdişlərə qarşı ictimai mübarizə”*** haqqında geniş məlumat verilmişdir. Təlimin keçirilməsi zamanı müxtəlif rol oyunları, interaktiv qrup müzakirələri, qrup işləri və təqdimatlar kimi

bir çox təlim metodlarından da geniş istifadə olunmuş və sonunda bütün iştirakçılara müvafiq sertifikatlar təqdim edilmişdir.





4. 30 noyabr tarixində Lənkəran Məşğulluq Mərkəzində ***"Mübadilə görüşü"*** keçirilmiş və bu görüşdə "Əqli və Fiziki Cəhətdən Qüsurlu Uşaqlar üçün Xüsusi İnternat Məktəbi", "Osman Mirzəyev adına Qarışıq Tipli Uşaq Evi" və "Lənkəran Peşə Liseyi"nin hər birindən 4 şagird və bir təlimatçı olmaqla ümumilikdə 15 nəfər iştirak etmişdir. İştirakçılara Lənkəran Məşğulluq Mərkəzi, işə düzəlmə qaydaları və sənədləşmə prosedurları, habelə şirkətlər və onların elan etdiyi vakansiyalar barədə geniş məlumat verilmişdir.





5. 18 dekabr tarixində Lənkəran şəhərində yerləşən "Dalğa" otelində 1 günlük dəyirmi-masa təşkil olunmuşdur. Dəyirmi-masada "Osman Mirzəyev adına Qarışıq Tipli Uşaq Evi", "Lənkəran Peşə Liseyi", "Əqli və Fiziki Cəhətdən Qüsurlu Uşaqlar üçün Xüsusi İnternat Məktəbi" və Lənkəran Məşğulluq Mərkəzinin əməkdaşları, eləcə də, QHT və KİV nümayəndələri iştirak etmişdir. Tədbirin əsas məqsədi 2010-cu il ərzində ***"Yeniyetmələr üçün Həyat Bacarıqları"*** proqramının gedişatı ilə əlaqədar təqdimatın keçirilməsidən, layihə

ilə bağlı ictimai müzakirələrin aparılmasından və gələcək fəaliyyət üçün müvafiq təkliflərin hazırlanmasından ibarət olmuşdur.





*MAGİYA ictimai birliyinin Mətbuat Katibliyi, 30 dekabr, 2010-cu il*